# Müasir texnoloji resursların kiçik məktəblilərin yazı mədəniyyətinə bəzi təsirləri

**Günay Butayeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** gunayim.buta@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. Q.İ. Məşədiyev,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** texnologiya, yazı mədəniyyəti, kiçik məktəbli, elektron resurslar
**Ключевые слова:** технология, письменная культура, школьники, электронные ресурсы
**Key words:** technology, the culture of writing, younger pupils, electron resources

Bu gün texnika və texnoloji vasitələr həyatımızın ayrılmaz bir hissəsinə çevrilmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının nəticəsidir ki, biz dünyanın istənilən məkanı ilə əlaqə saxlaya bilirik. Danılmaz faktdır ki, artıq intellekt-əqli güc fiziki gücü üstələmişdir. Bunu uşaq həyatına da şamil etmək olar. Real həyatımızda uşaqların fiziki gücünü artıq beyin gücü əvəz etməkdədir. Yeni texnoloji vasitələrin faydalarından istifadə edirik. Yəni, yeni texnologiya vasitələri insanların işlərini asanlaşdırdığı kimi onların cəmiyyətə mənfi təsirləri də var. Əsasən də kiçik məktəblilərin kompüter, telefon, internet kimi yeni texnologiya vasitələrindən hədsiz dərəcədə istifadə etməsi və düzgün istifadə etməməsi onların gələcək nailiyyətlərinə mənfi təsir göstərə bilər. Bu məsələ də təbii ki, təkcə kiçik məktəbli uşaqları günahkar hesab edə bilmərik. Yeni texnologiyaların düzgün istifadə edilməməsinin səbəblərindən biridə valideynlərdir. Valideynlərin əksəriyyəti uşaqların gələcəyini düşünmədən texnologiyaların müsbət tərəfini nəzərə alaraq hərəkət edirlər. Texnologiyaların uşaqlarda yaradacaq mənfi təsirlərindən xəbərsizdirlər.

Hal-hazırda kiçik məktəblilərin çoxu valideynləri tərəfindən "smartfon" tipli telefonlarla təmin olunur ki, həmin telefonlardan nəinki danışıq vasitəsi kimi istifadə etmək olar, hətta həmin telefonlar vasitəsilə internetə müəyyən saytlara daxil olaraq, videolara baxmaq olar. Bu hal isə kiçik məktəblilərin dərs zamanı fikirlərinin yayınmasının səbəblərindən biridir.

Texnologiyalardan düzgün istifadə etmək, yalnız beyin gücü ilə deyil, fiziki gücdən də istifadə edərək düzgün şəkildə həyatımıza tətbiq edə bilərik. Texnologiyanın həddən artıq istifadə edilməsi uşaqlarda mənfi nəticələrə gətirib çıxarda bilər. Buna misal olaraq hərəkətsizlik, insan əlaqələrin azlığı, diqqətini düzgün idarə edə bilməməsi və s.

Texnologiyaların qədərindən artıq istifadəsi çox insanda insan əlaqələrinin azlığına səbəb olur. Bunu nümunələrlə daha aydın görə bilərik. Uşaqlardan ibarət iki qrup təşkil olunmuşdu. Bir qrupa elektron vasitələrdən istifadəyə məhdudiyyətlər qoyulmuşdur, digər qrupa isə heç bir məhdudiyyət qoyulmamışdır. Nəticədə texnologiyadan istifadə etməyən kiçik məktəblilərdə insanların üzlərini tanımaq, onlarla ünsiyyətə girmək daha yaxşı nəticə göstərmişdir. Texnologiyadan hədsiz dərəcədə istifadə uşaqların nəinki təhsilləri ilə bağlı məsələdə, hətta sağlamlıqlarında, sosiallaşmalarında müəyyən problemlərə yol aça bilər.

Digər bir problem hərəkətsizlikdir. Uşaqlar hər gün idman hərəkətləri etməlidirlər. Onlara havaya çıxmaq, qaçmaq lazımdır. Valideynlər övladlarına texnologiyadan istifadə etməyə məhdudiyyətlər qoymasalar, bütün günlərini evdə oturaraq keçirəcəklər. Vaxtilə az yaşda yaranan hərəkətsizlik, onlar böyüdükdə ciddi sağlamlıq problemlərinə gətirib çıxarda bilər.

Kiçik məktəblilər internetə daxil olduqda onun üçün hər şey həll edilmiş olur. O, internet vasitəsilə çizgi filminə baxa, oyun oynaya və ya ev tapşırıqlarının cavabını tapa bilər. Əgər uşaqlar sadəcə "Google" veb səhifəsinə daxil olaraq ev tapşırıqlarının cavabının tapılması öyrədilsə və yaxud hər hansı bir məlumatı özü tapmadan onu hazır əldə etsə, onları davamlı olaraq özləri düşünməyəcək, yazıb tapmağa cəhd etməyəcəklər. Belə olduğu halda, onların yazı mədəniyyətinə yeni texnologiyaların formalaşmasına mənfi təsir göstərir.

Yazı-bu məzmun xətti şagirdin sözləri və cümlələri aydın oxuna bilən şəkildə yazmasını, konkret şəraitdə və məqsədə uyğun olaraq cümlələr qurmasını, fikirlərini, abzaslarla ifadə etməsini, tədricən ilkin yazı üzrə bacarıqlar qazanmasının, təsviri və mühakimə xarakterli mətnlər qurmasını təmin edir (2, 91 ).

Şagird: kiçik və böyük hərfləri və cümlələri aydın yazır. Yazıda orfoqrafiya və durğu işarələri qaydalarına əməl edir (2,91 ).

Yazı qrafik işarələr sistemidir. O ən mühüm ünsiyyət vasitələrindəndir. Yazının əmələ gəlməsilə insanlar öz fikirlərini başqalarına çatdırmaqda ondan geniş istifadə etmişlər. Bu baxımdan yazı ən mühüm ictimai alətdir. Yazı bəşəriyyət tarixinin hər bir pilləsində böyük xidmət və rola malikdir (1, 28).

a) insanın maddi aləmlə bağlı bilik və təcrübəsini başqalarına olduğu kimi, çatdırmasının ən mühüm vasitəsi tarixən yazı olmuşdur və indi də olmaqdadır. Yazının imkanları ünsiyyətin digər vasitələrinə(şifahi nitqin ifadə vasitələrinə) nisbətən daha genişdir (1, 28).

b) elm və texnikanın, mədəniyyətin və s. inkişafında yazı misilsiz xidmətlərə malikdir. O, dünyada olan bütün nəsillər və eləcə də millətlər arasında körpü rolunu oynamış, onların qarşılıqlı yaxınlaşmasına, mədəniyyətin inkişafına güclü təkan vermişdir (1, 28).

c) xalqın savadlı olması, elm və mədəniyyəti yazı ilə bağlıdır. Yazısız və yazının ümumiləşmədiyi bir xalqda fikrin inkişafı son dərəcə zəif olur. Onun tarixi, soy kökü, inkişafı haqqında düşünmək artıqdır (1, 28).

ç) yazı insanların dünyaya və cəmiyyətə olan baxışlarını formalaşdırır, kainatı dərk etmələrinə kömək göstərir, maddi və mənəvi dəyərlərin, mədəni irsinin qorunub saxlanılmasını, mühafizə olunmasını təmin edir. O, "insan mədəniyyətini cəmiyyətdən cəmiyyətə yetirən, cəmiyyətlərin inkişaf tarixini özündə əks etdirən ayrılmaz bir bağdır (3,213).

d) yazı ictimailəşdirici xarakter daşıyır. O, insanların və eləcə də millətlərin elmi və mədəni əlaqələrini sixlaşdıran, ortaqlaşdıran vasitədir. Bu vasitə ilə hər bir yeni kəşf, ixtira az bir zamanda bütün insanların ortaq malına çevrilir. Beynəlmiləl xarakter daşıyan yazı bütün millətləri və xalqları bir–biri ilə əlaqələndirir (1, 28).

e) yazı keçmişlə, bu günlə qapanıb qalmır, o eyni zamanda toplanmış maddi və mənəvi sərvətləri gələcək nəsillərə ötürməyə imkan verir (1, 28).

Şagirdlər həm zehni, həm də oxudan fərqli fəaliyyət göstərirlər. Onlar ilk dəfə yazacağı səsi əvvəl eşidir, onu bir neçə dəfə dodaqaltı təkrarlayır, onun qrafik obrazı ilə yazılı forması arasındakı fərqi təsəvvürlərində bir daha yenidən canlandırır, götür-qoy edir, tutuşdurur, sonra dəftərlərinə yazmalı olurlar. İlk günlər bu proses çox ləng gedir, məktəblilər hərfin ayrı-ayrı elementlərini görmədikdə, onları birləşdirməkdə çətinlik çəkirlər (1,29).

İlk yazıya başlayan uşaq üçün hər bir hərf sirli bir aləmdir. O, burada bütün diqqətini, iradəsini, bacarığını səfərbərliyə alır, hərfin ayrı-ayrı elementlərini yazmağa, onları birləşdirməyə, dəftərlərin damalarında düzgün yerləşdirməyə çalışır. Təcrübə göstərir ki, məktəblilərdə keyfiyyətli, səliqəli, sürətli yazı vərdişləri yaratmaq üçün ən əvvəl onları bu işə yaxşı hazırlamaq lazımdır (1,29).

Yazı mədəniyyəti uşağın inkişafına, onun şəxsiyyət kimi formalaşıb cəmiyyətdə öz yerini tutmasına səbəb olan vasitələrdən biridir. O, düşündüklərini yazı vasitəsilə həkk edir. Lakin texnologiya vasitələrinin yazı mədəniyyətinə göstərdiyi mənfi təsir istər-istəməz öz təsirini göstərir. Belə ki, bizim istifadə etmək üçün yaranmış bəzi proqramlar var ki, o proqramlar o qədər inkişaf edir ki, bizim əziyyət çəkməyimizə və yaxud fiziki güc tətbiq etməyə heç bir ehtiyac olmur. Nümunə üçün tərcümə proqramlarını götürək. Bir sözün tərcüməsini öyrənmək üçün onu yazmağa ehtiyac olmur. Səsli formada istədiyin sözü deyib, onun cavabını hazır şəkildə əldə etmiş olurlar. Belə hallar öz fəsadlarını zamanla göstərir.

Texnologiya avadanlıqlarının qadağan edilməsi yerinə onlardan məhdud qədər istifadə edə bilərik. Beyin gücü ilə yanaşı fiziki güc ilə də istifadə etsək hər şey daha yaxşı olar. Bu həm valideynlər üçün, həm də uşaqların gələcəyi üçün atılması vacib olan addımlardan biridir.

**Məqalənin aktuallığı.** Bildiyimiz kimi, texnika və texnologiyalarımız inkişaf edir. Bu gün kiçik məktəblilər, az yaşlılar, böyüklər ümumiyyətlə insanların çoxu demək olar ki, texnologiyalardan istifadə edir. Danılmaz bir həqiqətdir ki, texnologiyaların həyatımızda rolu böyükdür. Çünki, müsbət cəhətləri və mənfi cəhətləri olmasından asılı olmayaraq fiziki güc tətbiq etmədən, beyin gücü vasitəsilə işimizi görə bilirik. Texnologiyalardan qətiyyən istifadə etməmək yerinə, düzgün şəkildə məhdudiyyətlər qoyaraq yenə də istifadə edə bilərik. Həm fiziki güc tətbiq edərək, həm də texnologiyalardan istifadə edə bilərik. Mövzunu da aktual edən cəhət budur.

**Məqalənin elmi yeniliyi.** Dünyada texnologiyaların müsbət keyfiyyətlərinin təsirini görüb, mənfi təsirlərini görməsək də zamanla bu məsələnin mənfi tərəflərini görərək öz həyatımızda düzgün şəkildə tətbiq etməyə çalışırıq. Bu məsələ ilə bağlı tədqiqatlar aparılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. A.N. Rəhimov. Ana dilinin tədrisi metodikası (İbtidai siniflərdə). Bakı: Nurlan, 2003.
2. N.B. Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə: Dərslik. Bakı: ADPU-nun nəşri, 2016.
3. Ə. Dəmirçizadə. Müasir Azərbaycan dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya. Bakı: Şərq-Qərb, 2007.

**Г. Бутаева**

## Противоположные воздействия ресурсов современной технологии в письменной культуре школьников

## Резюме

Есть такая реальность что технология с каждым днём все развивается. Каждый день новые функции в лучшей форме развиваются и продвигаются. В развитие технологии ест как и положительные так и отрицательные черты и со временем это себя показывает. Нужна ценить положительные черты технологии а отрицательные черты нужна сделать заметку и использовать правильна.

**G. Butayeva**

## Negative effects of modern technologies (resources) over the younger pupils' culture of writing

## Summary

It is a reality that technologies are getting developed in every passing day. So that they are created in a form having better characteristic features and functions. Although there are numerous advantages of modern technologies, on the other hand, they have lots of disadvantages. We should utilize those technologies by evaluating their advantages and taking into consideration their disadvantages as well.

**Redaksiyaya daxil olub:** 12.04.2019